# Qəbələnin sosial-iqtisadi inkişafı möhkəm zəminə söykənir

## 2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat

## MƏRUZƏSİ

(Əvvəli 9-cu səhifədə).

Məlum olduğu kimi yüksək məhsuldarlığın əldə olunmasında kondisiyalı toxum mühüm rol oynayır. 2019-cu ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinə laboratoriya analizinə gətirilmiş müxtəlif kənd təsərrüfatı bitkilərinin toxumları yoxlanılmış və onlara müvafiq rəylər verilmişdir. Rayonda fəaliyyət göstərən 6, o cümlədən 2 hüquqi və 4 fiziki şəxslərin təsərrüfatlarına məxsus toxumluq əkin sahələrinin 1528 hektarında abrobasiya aparılaraq ortaq məhsuldarlıq müəyyən edilmişdir. Biçilmiş toxumluq sahələrin məhsuldarlığı 42 sentner təşkil etmiş, 3428 ton sertifikatlı toxum istehsal olunmuşdur. Payızlıq əkin əsasən bu toxumlarla aparılmışdır.

Hazırda rayonda kənd təsərrüfatı işləri üçün kifayət qədər texnika mövcuddur. Fiziki şəxslərdə 390 ədəd, hüquqi şəxslərdə isə 194 ədəd müxtəlif kənd təsərrüfatı texnikası vardır. Bütövlükdə rayonda 60 ədəd taxılyığan kombayn, 25 ədəd tırtıllı, 405 ədəd təkərli traktor, 24 ədəd buldozer, 52 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir.

2019-cu ildə rayonda iri buynuzlu mal-qaranın sayı 45191 baş, o cümlədən inək və camışlar 22301 baş, qoyun-keçilər 186669 baş, donuzlar 761 baş olmuşdur.

Hesabat dövründə rayonumuzda ət istehsalı (diri çəkidə) 6251,5 ton, o cümlədən inək əti 2926,2 ton, camış əti 352,4 ton, qoyun əti 2058,7 ton, keçi əti 16,1 ton, donuz əti 12,1 ton, quş əti 886 ton, süd istehsalı 40501,8 ton, o cümlədən inək südü 39426,5 ton, camış südü 721,8 ton, qoyun südü 353,5 ton, yumurta istehsalı 22958 min ədəd, yun istehsalı isə 413,2 ton olmuşdur.

Qəbələdə 2 müasir heyvandarlıq kompleksi və 4 ədəd kiçik həcimli heyvandarlıq təsərrüfatı fəaliyyətə başladıqdan sonra rayon əhalisinin ətə və südə olan tələbatının ödənməsində ciddi müsbət dəyişikliklər baş vermişdir.

Mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 6 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Keçən il mütəxəssislər tərəfindən 8814 baş inək və düyədə süni mayalama aparılmış və onlardan 4747 baş yüksək genetik potensiala malik buzovlar alınmışdır. 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir buzova görə subsidiya verilir. 2019-cu il ərzində 2271 nəfər heyvan sahibinə 2734 buzovlara görə 273400 manat məbləğində subsidiya ödənilmişdir.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika və peyvəndləmə işləri aparılır. Hazırda rayonda epizootik durum sabitdir.

Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzi tərəfindən 2019-cu ildə 55 hektar meşə əkini aparmışdır. Əkin sahəsinin 51,8 hektarı aqrobağdır. Meşə massivində 0,55 hektar sahədə tinglik salınmış, 800 kiloqram palıd toxumu səpilmişdir. Bundan əlavə 780 hektar sahədə meşə bərpa tədbirləri həyata keçirilmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2019-ci il ərzində rayon icra hakimiyyətinə daxil olan bütün müraciətlərə qanunun tələblərinə uyğun şəkildə baxılmışdır. Bu dövrdə rayon icra hakimiyyətinə ümumilikdə 1059 ərizə daxil olmuşdur. O cümlədən 565 ərizə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 14 ərizə Milli Məclisdən, 23 ərizə Nazirlər Kabinetindən, 47 ərizə digər mərkəzi icra hakimiyyəti orqanlarından, 410 ərizə isə vətəndaşlardan birbaşa daxil olmuşdur.



**Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavna ilə rayon icra hakimiyyətində görüş.**

> *Qəbələnin özünəməxsus kənd təsərrüfatı və buradakı məhsul bolluğu müvafiq istehsal müəssisələrinin formalaşmasına zəmin yaratmışdır.*
>
> **İlham Əliyev**

Vətəndaşlar tərəfindən göndərilən ərizələrin məzmunu əsasən onların mənzillə təmin olunması, müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımının təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlmə və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavablar verilmişdir.

Ötən il ərzində vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, 2019-cu il ərzində 797 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də hesabat dövrü ərzində rayon icra hakimiyyəti başçısının 46 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 2690 nəfər iştirak etmişdir. Onlardan 293 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

İrəli sürülən təkliflərin və müraciətlərin 267-i həll edilmiş, 17 məsələnin həlli ilə bağlı müvafiq izahat verilmiş, digər 9 məsələnin həlli istiqamətində respublikanın əlaqədar təşkilatları qarşısında məsələ qaldırılmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalrının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, artezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli yığıncaq iştirakçıları!**

2019-cu il ərzində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır.

Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti 2020-ci ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında keçirilən müşavirədə verdiyi göstəriş və tövsiyələrin, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə bağlı lazım gələn bütün tədbirləri görəcəkdir.

**Diqqətinizə görə sağ olun.**




**Pakistanın nümayəndə heyəti Qəbələ ilə tanış olur.**